# "Bizim kino günləri - audiovizual məkanda peşəkarlıq"

**Ötən gün "Nizami" Kino Mərkəzində "Bizim kino günləri - audiovizual məkanda peşəkarlıq" layihəsinin təqdimatı oldu.**

Tədbirdə kino ictimaiyyəti, "Axınla aşağı" bədii filminin yaradıcı heyəti və media nümayəndələri iştirak edirdilər.

Mədəniyyət və Turizm Nazirliyinin və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının birgə reallaşdırdıqları layihə Azərbaycan kinosunun təbliği, müasir kino məkanında yeri və dəyəri, dünya kino sənayesinə inteqrasiyası, yeni kinomuzda peşəkarlıq məsələlərinə həsr olunur.

Tədbirdə layihənin ideya müəllifi, "Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmov müasir Azərbaycan kino sənayesinin hazırkı mənzərəsi haqqında iştirakçılara ətraflı məlumat verdi. Bildirdi ki, kino incəsənətin ən çox baxılan və uğur qazanan sahəsidir: "Kino sənətində peşəkarlıq çox önəmlidir. Ona görə də çalışırıq ki, bu strateji sahəni müasir dövrün tələblərinə uyğun quraq".

M.Hətəmov vurğuladı ki, "Azərbaycanfilm" kinostudiyasının ətrafına yaradıcı, istedadlı insanlar toplaşmışdır: "Ötən il ölkəmizin kino işçiləri üçün uğurlu olmuşdur. Filmlərimiz 52 beynəlxalq festivalda təqdim edilmişdir. Ekran əsərlərimiz nümayiş olunduqdan sonra artıq müştərək filmlərin çəkilməsi barədə xaricdən gələn təkliflərin sayı artıb".

"Azərbaycanfilm" kinostudiyasında hazırda həyata keçirilən tədbirlər barədə məlumat verən direktor qeyd etdi ki, müxtəlif janrlarda ssenarilərin müzakirəsi gedir:




"Bununla yanaşı, bir neçə layihənin də icrasına başlanılıb. Bunlar "Nar" və "Köşk" filmləri, "Qarabağ" və "Qərbi Azərbaycan" layihələridir. Ümid edirik ki, bu layihələrimiz də uğurla başa çatacaq".

Daha sonra rejissor Asif Rüstəmovun "Axınla aşağı" bədii filminə baxış keçirildi.

Filmin nümayişindən sonra isə "Azərbaycan kinematoqrafiyasında ailə dəyərləri" mövzusunda maraqlı müzakirələr aparıldı.

Qeyd edək ki, "Azərbaycanfilm" kinostudiyasında son zamanlar çəkilən filmlər noyabrın 20-dən etibarən, "Nizami" Kino Mərkəzi, "Park Cinema" və "28 Cinema" kinoteatrlarında nümayiş etdiriləcək.

**Cavid Əkbərov,**
***"İki sahil"***